Hörmətli Nazirlər, BMT-nin ixtisaslaşmış qurumlarının rəhbərləri və bütün iştirakçılar,

Sizi Azərbaycanda salamlayır və Bakıya xoş gəlmisiniz deyirəm!

Bugün burada olmaq, iqlim təsirləri və dayanıqlığın gücləndirilməsi dövründə uşaqların və gənclərin qarşılaşdığı çətinlikləri müzakirə etmək mənim üçün böyük şərəfdir.

İnanıram ki, COP 29 çərçivəsində keçirilən müzakirələr bizə birgə həll yollarını tapmaq üçün unikal bir imkan təqdim edir.

Dövlət Komitəsinin sədri olaraq fəaliyyətimiz, uşaqların və ailələrin hüquqlarını və rifahını qorumağa yönəlib.

Lakin iqlim dəyişikliyi bu vəzifəyə tamamilə yeni bir ölçü əlavə edir. Onun təsirləri təkcə ekoloji deyil, həm də  şəxsi və sosialdır.

İqlim dəyişikliyinin təhsilə və sağlamlığa təsirləri vasitəsilə yaratdığı pozuntular bütün dünyada uşaqlara, ailələrə və icmalara birbaşa təsir edir.

Buna görə, onların hərtərəfli inkişafı və ətraf mühit təsirlərindən qorunması yalnız gələcəyə bir sərmayə deyil, həm də Paris Sazişi və Dayanıqlı İnkişaf Məqsədlərinə xidmət edir.

İnsan inkişafı bizim fəaliyyətimizin mərkəzində dayanır və iqlim dəyişikliyi fonunda bu diqqətin əhəmiyyəti daha da artır.

İqlim təsirləri sağlamlıqdan və təhsildən iqtisadi sabitliyə qədər insan inkişafının hər bir sahəsinə toxunur. Buna görə də, uşaqlarımızın hərtərəfli dəstəklənməsi vacibdir.

Biz öz fəaliyyətimizdə bu problemləri yaxından görür və iqlim kontekstində uşaqları dəstəkləməyin hər birimizin üzərinə düşən bir məsuliyyət olduğunu qəbul edirik.

Bizim iqlim dayanıqlığını qurma yanaşmamız regionlar, icmalar və yaş qrupları arasında əlaqə yaratmaqla hər yerdə uşaqların inkişaf etməsi üçün bilik və dəstək təmin etməyə yönəlib.

İqlim savadlı və iqlimə dayanıqlı bir nəsil yetişdirmək vacibdir. Bunu təmin etmək üçün səmərəli və dayanıqlı mexanizmlər yaradılmalıdır.

Həssas icmalar üçün iqlim dəyişikliyi əhəmiyyətli iqtisadi və sosial problemlər yaradır.

Bunları aradan qaldırmaq üçün sosial müdafiə və təhlükəsizlik şəbəkələri gücləndirilməli, iqlim hadisələrindən təsirlənənlərə maliyyə dəstəyi göstərilməlidir.

Bundan əlavə, ekstremal istilik, infeksiyalar, hava çirkliliyi, qidalanma və ərzaq təhlükəsizliyi üçün erkən xəbərdarlıq sistemlərinin yaradılmasını vacib hesab edirik.

Uşaqların kifayət qədər təmiz içməli suya çıxışının təmin edilməsi, yaşıllıq sahələri və parkların salınması, xilasetmə planlarının əvvəlcədən hazırlanması olduqca önəmlidir.

Əlbəttə ki, biz Gələcək nəsillər üçün iqlim dayanıqlığının qurulmasının hər hansı bir sektorun tək məsuliyyəti olmadığını aydın başa düşürük.

Buna görə də, təhsil müəssisələri, səhiyyə təminatçıları, yerli hökumətlər və beynəlxalq təşkilatlarla əməkdaşlıq, hərtərəfli bir şəbəkə yaratmaq üçün əsasdır.

Biz uşaqları qorumaq və onları gücləndirmək missiyamızı davam etdirərkən anlayırıq ki, iqlim dayanıqlığı sosial dayanıqlıqla sıx əlaqəlidir.

Uşaqlar və ailələr sabit dəstəyə, sağlamlıq xidmətlərinə çıxışa ehtiyac duyurlar. Onlar əmin olmalıdırlar ki, ekoloji dəyişikliklər dövründə geridə qalmayacaqlar.

Odur ki, COP29 Prezidentliyinin başladığı İnsan İnkişafı Təşəbbüsü və onun Bakı İstiqamətverici Prinsipləri düzgün istiqamətdə atılan bir addımdır.

İlk dəfə olaraq, uşaqlara və gənclərə xüsusi diqqət yetirilərək, iqlim tədbirləri çərçivəsində hərtərəfli insan inkişafı COP gündəminə gətirilib.

Sonda vurğulamaq istəyirəm ki, uşaqlarımızı iqlim dəyişikliyi ilə üzləşmədə dəstəkləmək üçün atılan hər addım ortaq gələcəyimizə bir sərmayədir.

Bu səbəbdən, hər kəsi bu vacib missiyada daha aktiv rol oynamağa və yaşıl dünya üçün həmrəyliyə çağırıram.

Təşəkkür edirəm!